# Naxçıvan Muxtar Respublikasında kitabxanalrın təəşəəkkülü



*Sahab ƏLİYEVA*
*AMEA Naxçıvan Bölməsi Elmi Kitabxanasının direktoru*

Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, elmimizin və pedaqoji fikrin inkişafında mühüm xidmətləri olan Nəzakət İsmayılovanın oxuculara təqdim etdiyi "Naxçıvan Muxtar Respublika kitabxanalarının təşəkkülü və inkişaf tarixi" kitabı muxtar respublikamızda kitabxanaların tarixinə və keçdiyi inkişaf yolunun araşdırılmasına həsr olunan dəyərli tədqiqat əsəridir. Giriş, Naxçıvanda kitabxana işinin mərhələlərlə tədqiqinin yer aldığı bölmələr və burada fəaliyyət göstərən kitabxanaların yaranması və keçdiyi inkişaf yolunu əhatə edən başlıqlardan ibarət olan kitabda respublikamızın ərazisində yerləşən kitabxanaların təşəkkül tarixinə nəzər yetirilmiş və keçilən inkişaf yolu fakt və mənbələr əsasında geniş tədqiq edilib.

Girişdə ən böyük informasiya mənbəyi olan, cəmiyyətin tərəqqisində müstəsna rol oynayan kitabxanaların və Azərbaycanda kitab və kitabxana mədəniyyətinin yaranması, müasir inkişafa qovuşması, müasir kitabxana informasiya şəbəkəsinə malik 12 mindən çox kitabxananın fəaliyyəti ən böyük nailiyyət kimi dəyərləndirilib.Daha sonra Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə görülən işlərə nəzər yetirilib, burada ən qədim dövrlərdən formalaşan kitab mədəniyyəti və sonradan arxeoloji tədqiqatlar nəticəsində üzə çıxarılan çox sayda kitabə və əlyazmalardan bəhs edilib.

Əvvəldə də qeyd etdiyimiz kimi, Naxçıvanda kitabxana işini dövrlər üzrə tədqiq edən müəllif ilk olaraq XI-XII əsrlərdə Azərbaycan Atabəylər dövlətinin yaranması ilə bütün sahələrdə olan yüksəlişi, həmçinin mədəniyyət sahəsində olan inkişaf və bu inkişafın Naxçıvana təsiri, burada yaradılan mədrəsə, ruhani məktəbləri haqqında məlumat vermiş, həmin dövrdə elmin və mədəniyyətin inkişafına mühüm töhfələr verən alim, şair və memarlar- Əkmələddin Naxçıvani, Əbu Ömər Naxçıvani, Nəcməddin Naxçıvani, Həsən ibn Ömər, Əcəmi Naxçıvani, Əhməd ibn əl-Hafiz Naxçıvani və başqa mütəfəkkirlərin yetişməsinin kitab mədəniyyətinin inkişafına da təsirsiz ötüşmədiyini diqqətə çatdırmışdır. Bu haqda müəllif yazır: "Azərbaycan kitabının yaradıcıları məhz XII əsrdə böyük inkişaf yolu keçmiş, Azərbaycanda elm, mədəniyyət, incəsənətin və başqa sahələrin görkəmli nümayəndələri olmuşlar. Onlar özlərinin yaratmış olduğu elmi, ədəbi-bədii, incəsənətə, memarlığa və digər sənət sahələrinə dair əsərləri ilə Azərbaycan kitab mədəniyyətini zənginləşdirmiş, onun dünya ədəbiyyatı, bəşəri mədəniyyət səviyyəsinə yüksəlməsinə şərait yaratmışdı".

"XIII-XV əsrlərdə Naxçıvanda kitabxana işi" adlı bölmədə isə XIII əsrin əvvəllərində monqolların Azərbaycana, həmçinin Naxçıvana hücumları nəticəsində bütün sahələrin tənəzzülə uğradığını, xüsusilə mədəniyyətə böyük zərbə dəydiyini, məktəb, mədrəsə, kitabxanaların yandırıldığını qeyd edən müəllif 1257-ci ildə yaradılan Hülakilərin dövründə, ən əsas Qazan xanın hakimiyyəti illərində həyata keçirilən uğurlu islahatların Naxçıvana təsiri, burada tikilən məscid və 2 mədrəsənin fəaliyyəti, Naxçıvanın inkişafında böyük xidmətləri olan Nəcməddin Naxçıvani, Həsən Naxçıvani, Kəmaləddin Naxçıvani, Nəsrəddin Tusi, Bayrək Quşçuoğlu, Fəzlullah Nəiminin şəxsi kitabxanalarının olmasının kitab mədəniyyətinin inkişafındakı rolunu yüksək dəyərləndirir, məktəb və mədrəsələrin tərkibində yaranan müxtəlif



kitabxanalar haqqında məlumat verir, həmçinin Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqinin kitab və kitabxana işinin inkişafındakı xidmətlərini, Culfada Əlincə çayının ətəklərində inşa etdirdiyi türbə kitabənin mətninin tərcüməsini verməklə belə qənaətə gəlir ki, artıq bu dövrdə hökmdarların qayğısı nəticəsində kitabxana və kitabçılıq işinin inkişafı üçün əlverişli şərait yaranır, kitabçılıq artıq sənət kimi formalaşmağa başlayır.

Daha sonra Səfəvilərin hakimiyyəti illərində Azərbaycan tarixində yeni səhifənin açılması ilə Azərbaycan dilinin rolunun artması, təsir dairəsinin genişlənməsi, orduda, sarayda və diplomatik yazışmalarda istifadə olunması, Xətai, Həbibi, Füzuli kimi şairlərin öz dilimizdə əsərlər yaratması, çoxsaylı kitabların üzünün köçürülüb çoxaldılması kimi məqamları geniş təhlil edən alim həmin dövrdə Naxçıvanda fəaliyyət göstərən məktəb və mədrəsələr, xüsusilə Ordubad şəhərində olan mədrəsənin fəaliyyəti haqqında geniş məlumat verir. Bu dövrün tanınmış kitabdarları Həddad ən Nəşəvi, Əhməd ibn Hacad, Əbubəkr ən Nəşəvi, Həsən ibn Ömər Naxçıvani, Baba Nemətullah Naxçıvani, Məhəmməd Hinduşah Naxçıvaninin Azərbaycan elminin müxtəlif istiqamətlərini uğurla təmsil etmələrini tədqirəlayiq hal kimi dəyərləndirən müəllif Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanda təhsil müəssisələrinin kitabxanalarının böyük şəbəkəsinin formalaşdığını görkəmli səyyah A.Oliarinin verdiyi məlumatlara əsaslanaraq təqdim edir. Həmçinin kitabxanaçı alim A.Xələfovun orta əsrlərdə məktəb və mədrəsə kitabxanalarını indiki ali məktəb və digər təhsil müəssisələrinin kitabxanalarının əcdadı kimi dəyərləndirməsinə istinad etməklə öz fikrini daha da qüvvətləndirir. Alim həmin dövrdə Naxçıvanda kitab və kitabxana mədəniyyətinin inkişafında rolu olan alim və şairlərdən- Mirzə Kafi, Xacə Ətiq Ordubadi, İbrahim ibn Zeynəddin Naxçıvani, Mirzə Sadiq Ordubadi, Mirzə Zeynalabdin Ordubadi və başqalarının fəaliyyəti nəticəsində Naxçıvanda da




kitabların çoxalmasını, kitab fondlarının artmasınıda diqqətə çatdırır.

XIX əsrdə Azərbaycanda maarifçiliyin yaranması elmi-ictimai fikrin yeni ideyalar zəminində inkişafı pedaqoji fikir tarixi, xalq maarifi, məktəb sahələrində mühüm addımlar atılmasına şərait yaratmışdır. Bu dövrdə mədrəsələrlə yanaşı, yeni tipli məktəblərin əsasının qoyulması, müxtəlif şəhərlərdə qəza məktəblərinin fəaliyyətə başlamasını qeyd edən müəllif 1868-ci ildə Gəncədə, 1859-cu ildə Şamaxı və Şuşada, 1881-ci ildə Bakı, Quba, Salyan, Lənkəran və ən nəhayət Naxçıvanda M.T.Sidqi, C.Məmmədquluzadə, Q.Şərifzadənin iştirakı ilə təşkil edilən kitabxana-qiraətxanalar haqqında məlumat verir. Müəllifin qənaətinə əsasən, XIX əsrin ikinci yarısında Naxçıvanda da açılan yeni tipli məktəblərin yanında məktəb kitabxanaları yaradılırdı. Müəllif, həmçinin həmin dövrdə yaradılan M.T.Sidqinin Naxçıvan şəhərində təsis etdiyi "Tərbiyə məktəbi"nin fəaliyyətinə də nəzər yetirir, onun zəngin kitabxanasının olması, şagirdlərlə yanaşı, ziyalıların da həmin kitabxanadan istifadəsini əhalinin savadlanmasında, tədris prosesinin keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli addım kimi dəyərləndirir. Kitabda məşhur ziyalı Eynəli bəy Sultanovun 1882-ci ildə yaratdığı "Ziyalılar cəmiyyəti"nin iclaslarında da Naxçıvanda yeni məktəb və kitabxanaların yaradılması məsələsinin müzakirə olunduğunuvə yeni kitabxana açması ilə Eynəli bəyin Naxçıvanda ilk kitabxananın yaradıcısı kimi tarixə düşməsini diqqətə çatdırır. Daha sonra müəllif 1906-cı ildə Ordubadda açılan qiraətxana və bu qiraətxananın yaradıcıları M.S.Ordubadi, M.T.Sidqi, Mirzə Adil haqqında məlumatları M.S.Ordubadinin xatirələrinə istinad etməklə daha da dəqiqləşdirir. 8 il fəaliyyət göstərən bu qiraətxananın, həqiqətən də, insanların şüurunda demokratik fikirlərin formalaşmasında, təhsildə, tərbiyədə milli ideologiyanın təbliğində mühüm rolu olmuşdur.

Növbəti bölmədə isə "XX əsrin əvvəllərində Naxçıvanda kitabxana işi" tarixinə nəzər salınır, M.S.Ordubadi adına kitabxananın 1922-ci ildə yaradılması və 1930-cu ilə kimi şəhər kitabxanası, 30-cu ildən sonra isə Naxçıvan Muxtar Respublika kitabxanası kimi fəaliyyətini davam etdirməsi, 1953-cü ildən kitabxanaya böyük yazıçımız M.S.Ordubadinin adının verilməsi, 2012-ci ildən elektron kitabxana kimi də oxuculara xidmət etməsi, 2002-ci ildən Miniatür kitab muzeyinin filialının burada açılması, kitabxananın keçdiyi tarixi inkişaf yolu, oxuculara xidmət işinin təşkili kimi məqamlar fakt və mənbələr əsasında tədqiq edilir.

Sonrakı bölmələrdə isə müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında kitabxana işinin təşkili və formalaşması məsələləri araşdırılır, 2013-cü ildə yaradılan Naxçıvanşünaslıq Mərkəzinin kitabxanası, Adil Babayev adına Muxtar Respublika Uşaq kitabxanası, AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanası, Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanası, Naxçıvan Müəllimlər İnstitutunun Elmi Kitabxanası, "Naxçıvan" Universitetinin Elmi Kitabxanası, Naxçıvan Tibb, Texniki və Musiqi Kolleclərinin kitabxanalarının yaranması, keçdiyi inkişaf yolu və müasir vəziyyəti ilə bağlı məqamlar mənbələr əsasında araşdırılaraq oxuculara təqdim olunur.

Yekun olaraq onu qeyd edə bilərik ki, Nəzakət İsmayılovanın oxuculara təqdim etdiyi bu kitab Naxçıvanda kitabxana işinin tarixinin və keçdiyi inkişaf yolunun öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Kitabxanalar haqqında ədəbiyyatların məhdud olduğu müasir dövrümüzdə belə bir kitabın ərsəyə gətirilməsi təqdirəlayiq addımdır. İnanırıq ki, bu kitab gələcəkdə kitabxana istiqamətində tədqiqat aparan araşdırmacılar üçün də dəyərli mənbə olacaq.

**2022**